**Dövlət Statistika Komitəsində Ümummilli lider Heydər Əliyevin 91-ci ildönümünə həsr olunmuş tədbir keçirilmişdir.**



Mayın 7-də Dövlət Statistika Komitəsində Ümummilli lider Heydər Əliyevin 91-ci ildönümünə həsr olunmuş tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə açan Kənd təsərrüfatı və ekologiya statistikası şöbəsi müdirinin müavini Malik Heydərov ilk öncə tədbir iştirakçılarını salamlamış, Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrləri ilə bağlı çıxış etmişdir. Sonra söz Dövlət Statistika Komitəsi sədrinin müavini Yusif Yusifova verilmişdir. O, öz çıxışında bildirmişdir ki, mühüm iqtisadi və siyasi qərarları ilə yaddaşlarda iz qoymuş xalqımızın əbədi lideri, ömrünün 60 ildən çoxunu öz doğma xalqına, onun gələcək xoşbəxtliyinə sərf etmiş, xalqımızın gələcək inkişaf yolunun möhkəm təməlini qoyaraq Azərbaycanın 10 illər sonra da inkişaf istiqamətini proqnozlaşdırmaqla dövlətimizin qlobal inkişaf yolunu müəyyənləşdirmişdir.



Cənab Y. Yusifov Heydər Əliyev siyasi xəttinin möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirildiyini qeyd etmişdir. O, son 10 ildə ölkəmizin əldə etdiyi mühüm tarixi nailiyyətlərdən, Azərbaycan sosial-iqtisadi inkişaf tempinə görə dünyanın qabaqcıl dövlətlərindən birinə çevrilməsi istiqamətində atılan addımlardan bəhs etmişdir.



Sonra tədbirdə çıxış edən Dövlət Statistika Komitəsinin əməkdaşları Elman Qasımzadə, Sevda Süleymanova, Nigar Nağıyeva Ulu öndərin Vətənimiz üçün gördüyü işlərlə bağlı məruzələrlə çıxış etmiş, görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin qurulmasında, ölkənin inkişafında böyük xidmətlərindən danışmışlar.

Sonda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə may ayının 4-də Komitənin əməkdaşlarının iştirakı ilə "Heydər Əliyev kuboku" uğrunda keçirilmiş mini futbol turnirində fərqlənərək finala çıxmış komandaların üzvləri hədiyyə və kubokla mükafatlandırılmışlar.









